İşıqlı sabahlar üçün, parlaq bir gələcək üçün,
çiçəklənən millət üçün, səsi dünyaya yayılacaq bir
gənclik üçün, düşünərək yaşayanlar üçün, xoşbəxt bir
ailə üçün, sevincli qəlblər üçün, gülən üzlər üçün,
həyat səhifələrimizi parlaq imza sahiblərinin
qələmi ilə yazmaq üçün

parlaq imzalar

Kitabın sahibi: _____

Oxu tarixi: _____

Ürək ver: ♡ ♡ ♡ ♡ ♡

ATEİSTİN İBADƏTİ

(hekayələr)

ONORE DÖ BALZAK

Fransız dilindən tərcümə:

Çimnaz Vəliyeva

parlaq
İMZALARI

Baş redaktor:	Toğrul MUSAYEV
Redaktorlar:	Qurban YAQUBOĞLU Toğrul MUSAYEV
Korrektor:	Turac ELDARQIZI
Tərtibatçı:	Zülfi XƏLİLOV
Art-direktor:	Ramin HƏSƏNƏLİZADƏ
Cildin dizayneri:	Aygül ƏLİYEVA

Honoré de Balzac
LA MESSE DE L'ATHÉE *(histoires)*

Onore dö Balzak
ATEİSTİN İBADƏTİ *(hekayələr)*

Bakı, "Parlaq İmzalar" Nəşriyyatı – 2026, 104 səh. / II nəşr

© Honoré de Balzac / 1832-1836
© Parlaq İmzalar MMC / 2020
Kitabın bütün hüquqları qorunur. İcazəsiz olaraq hər hansı vasitə ilə nəşri və yayımlanması qadağandır.

Parlaq İmzalar Nəşriyyatı | 93
Yoldaş seriyası | 21

ISBN 978-9952-8468-72-2

www.parlaqimzalar.az
info@parlaqimzalar.az
/parlaqimzalar
0559697259 / 0559897259

16+

Mətbəə: "AVE PRİNT" MMC
OKTYABR / 2026

Onore dö Balzak 1799-cu il mayın 20-də Fransanın Tur şəhərində anadan olub. 1814-cü ildə hökumət qulluqçusu olan atası ilə birlikdə Parisə köçüb. İlk dəfə qələmini dramaturgiya sahəsində sınayan yazıçı 1820-ci ildə "Kromvel" dramını yazıb. 1824-cü ildə "Evlənməyin fiziologiyası" adlı oçerklər kitabını çap etdirib.
Balzaka ilk şöhrət gətirən əsər "Şuanlar"dır. Amma böyük yazıçı dünya ədəbiyyatı tarixində "Bəşəri komediya" ilə yadda qalıb. Belə ki, bu ad altında Balzakın 90 əsəri toplanıb. Bunların arasında "Qorio ata", "Qulan dərisi", "Vadidəki zanbaq" kimi məşhur romanlar da var. Balzakın "Bəşəri komediya"ya daxil etdiyi əsərlərdə burjua cəmiyyətinin əxlaqının ifşası əsas yer tutur.
Yazıçı 1850-ci il avqustun 18-də Paris şəhərində vəfat edib.

Çimnaz Vəliyeva 1982-ci ildə Bakı şəhərində anadan olub. Orta məktəbi 1999-cu ildə bitirib. 2000-ci ildə ADU-nun Fransız dili və tərcüməsi fakültəsinə daxil olub. 2005-ci ildə elə həmin universitetin Dilşünaslıq fakültəsinin magistratura pilləsində təhsilini davam etdirib. Bir müddət şifahi tərcümə ilə məşğul olduqdan sonra 2012-ci ildən bədii tərcüməyə başlayıb. Fransız ədəbiyyatından O. Balzakın "Vadidəki zanbaq", Q. Floberin "Madam Bovari", Sartrın "Sözlər", B. Verberin "Altıncı yuxu", M. Kunderanın "Mənasızlığın təntənəsi", J. P. Didyeloranın "6:27 qatarındakı qiraətçi" də daxil olmaqla 20-dən çox əsər tərcümə edib.

Mündəricat

Ateistin ibadəti..... 9
Dəniz kənarında faciə 43
Əmanət..... 77

ATEİSTİN İBADƏTİ

(Paris həyatının səhnələri)

Dostu Balzak tərəfindən
Ogüst Borjeyə[1] *həsr olunur.*

1. Ogüst Borje (1808-1877) – fransalı rəssam – Tərc.

Elmə qiymətli fizioloji nəzəriyyə gətirmiş, hələ gənc yaşlarından adı bütün Avropa həkimlərinin hörmət elədiyi maarifçilik mərkəzi – Paris Tibb məktəbinin məşhur alimləri ilə yanaşı çəkilməyə başlamış həkim Byanşon terapevt işləməzdən əvvəl uzun müddət cərrahlıqla məşğul olmuşdu. İlk addımlarını, adı elm aləmində meteor kimi parlamış görkəmli fransız cərrahı Deplenin rəhbərliyi altında atmışdı. Depleni gözü götürməyənlər belə etiraf edirdilər ki, onun izahedilməz metodunu heç kim mənimsəyə bilmədi. Bütün dahilər kimi onun da varisi yox idi, hər şeyi özü ilə gətirib, özü ilə apardı. Cərrahların şöhrəti aktyorların şöhrətinə bənzəyir, yaşayırlarsa – mövcuddurlar, öləndən sonra isə onların istedadına heç bir qiymət verilmir. Aktyorlar, cərrahlar, belə baxanda öz ifaları ilə musiqinin qüdrətini onqat artıran məşhur müğənnilər və mahir musi-

qiçilər də – hamısı gəldi-gedər qəhrəmanlardır. Bu fani dahilərin tale oxşarlığına bariz nümunələrdən biri də Deplenin taleyidir. Onun hələ dünənəcən dillərdə gəzən, bu günsə, demək olar ki, unudulmuş adı tibb aləminin sərhədlərindən kənara çıxmayacaq. Bəyəm bir alim adının elm sahəsindən bəşəriyyətin ümumi tarixinə düşməsi üçün fövqəladə nəsə tələb olunur? Bəs Deplen kimisə öz əsrinin *səsinə* və ya *fiquruna* çevirən hərtərəfli biliyə sahib idimi?

Deplen bəsirətli adam idi; o, sonradan qazanılmış, yaxud fitri bacarığı sayəsində xəstəyə və onun mərəzinə nüfuz edir, bu da Deplenə xəstəliyin bütün özünəməxsus cəhətlərini qiymətləndirməyə, hava şəraitini və xəstənin temperamentinin xüsusiyyətlərini nəzərə alaraq əməliyyat vaxtını saatına-dəqiqəsinə qədər dəqiq təyin etməyə imkan verirdi. Görəsən, Deplen təbiətlə bu cür həmahəng olmaq üçün atmosferin tərkibində olan və ya torpağın insana verdiyi elementlərlə canlı varlıqlar arasındakı fasiləsiz əlaqəni araşdırıb öyrənmişdimi? O elementlər ki, insan onları mənimsəyir və onlardan həyatın xüsusi mənasını əxz edir.

Bəlkə, bu qabiliyyətinə görə dahi Küvyeyə[1] xas olan deduksiya və analogiya kimi qüdrətli bir gücə borclu idi? Hər necə olsa da, bu həkim insan bədəninin bütün sirlərinə hali olmuşdu, orqanizmin indiki durumuna əsaslanaraq, onun həm keçmişinə, həm də gə-

1. Jorj Leopold Küvye (1769-1832) – fransız təbiətşünası, naturalist, paleontologiya elminin və müqayisəli anatomiyanın banisi – Tərc.

ləcəyinə baş vura bilirdi. Yoxsa Hippokrat, Qalen[1] və Aristotel kimi o da bütöv bir elmi öz simasında təcəssüm etdirirdi? Bəlkə, işıqlı dünyalara aparan bir məktəb yaratmışdı? Xeyr. Əgər insan bədəninin kimyasının bu yorulmaq bilməyən müşahidəçisinin qədim magiya elminə, yəni həyatın mənbəyini, həyatdan əvvəlki həyatı, təbiətdə gedən ilkin hazırlıq tədbirlərini görmək qabiliyyətinə yiyələndiyini inkar edə bilməsək də, təəssüflə etiraf etməliyik ki, Deplenin bütün bilikləri sırf fərdi xarakter daşıyırdı: sağlığında xudbinliyi ucbatından cəmiyyətdən təcrid olunmuşdu, bu günün özündə də elə həmin xudbinliyi onun şöhrətinə qənim kəsilib.

Onun qəbrinin baş tərəfində Dahinin fədakar axtarışlar nəticəsində faş olmuş sirləri gələcək nəsillərə çatdıra bilən heykəli də yoxdur. Amma, bəlkə də, Deplenin dahiliyi onun etiqadına uyğun və nəticə etibarilə öləri idi... Deplenin fikrincə, Yerin atmosferi həyat bəxş edən bətndi: o, Yer kürəsinə qabıqla örtülmüş yumurta kimi baxırdı və hansının – yumurtanın, yoxsa toyuğun əvvəl yarandığını aydınlaşdıra bilmədiyinə görə nə xoruzu, nə də toyuğu qəbul edirdi. O nə insanın sələfi olan heyvana, nə də insandan sonra qalan ruha inanırdı. Deplen şübhə etmirdi, Deplen təsdiqləyirdi. Onun ateizmi bir çox alimlərin, dünyada ən görkəmli insanların ateizmi kimi saf və səmimi idi; onlar qatı

1. Qalen (129-210) – yunan mənşəli Qədim Roma həkimi, cərrahı və filosofu – Tərc.

ateistdirlər, möminlər bu allahsızların varlığını necə sidqi-ürəkdən inkar edirlərsə, onlar da o dərəcədə, iliyinə qədər ateistdirlər. Hələ gənc yaşlarından sağ və ölü insanı yarmağa vərdiş etmiş, onun bütün orqanlarında eşələnəndən sonra dini təlimlər üçün son dərəcə zəruri olan vahid ruhu tapmamış bir kəs başqa cür düşünə də bilməzdi. Orqanizmin beyin, əsəb və tənəffüs-qan-damar mərkəzlərindən ibarət olduğunu kəşf edərək – üstəlik, ilk iki mərkəz biri-birini çox gözəl tamamlayırdı – Deplen həyatının son çağlarında belə qərara gəldi ki, eşitmək üçün eşitmə, görmək üçünsə görmə qabiliyyətinə ehtiyac yoxdur, günəş kələfi,[1] heç bir şəkk-şübhəyə yer qoymadan onları əvəz edir; beləcə, Deplen insanın iki ruhu olduğunu kəşf edərək, bu faktla öz ateizmini əsaslandırdı, hərçənd bu fakt Allahın varlığı-yoxluğu məsələsi ilə əsla əlaqədar deyildi. Deyilənə görə, bu insan da, təəssüf ki, bir çox dahilər kimi tövbə etmədən öldü, Allah ona rəhmət eləsin.

Deplenin şöhrətinə kölgə salmaq istəyən paxıl düşmənlərinin təbirincə desək, bu böyük insanın həyat yolu mənasızlıqla dolu idi, amma onların mənasız saydıqlarını aşkar ziddiyyətlər adlandırmaq daha doğru olar. Paxıllar və axmaqlar yüksək zəka sahiblərinə xas davranışlarda gizlənmiş əsl niyyəti heç vaxt anlaya bilmirlər, ona görə də kiçik bir ziddiyyət gördük-

1. Qarın boşluğunda olan ən böyük kələfdir. İnsan bu kələfin vasitəsilə intuitiv olaraq, hər hansı bir məsələnin doğru və yanlış, effektiv və ya qeyri-effektiv olduğunu duya bilir. – Tərc.

də ondan ikiəlli yapışıb ittiham aktı hazırlayır və elə həmin akta əsasən də dərhal hökm çıxarırlar. Hətta hücumlara məruz qalmış bu işlər sonradan uğurla sonuclanıb müqəddimələrlə nəticələr arasında qarşılıqlı əlaqə olduğunu göstərsə də, əsas iftiraların buraxdığı iz həmişəlik qalır. Necə ki, misal üçün, Napoleon öz qartalının qanadlarını[1] İngiltərənin başı üzərində gərmək istədiyinə görə bu gün də bizim müasirlərimiz onu topa tuturlar: 1804-cü ilin və Bulon düşərgəsinin yastıdib gəmilərinin əsl məq-sədi yalnız 1822-ci ildə bəlli oldu.

Deplenin şöhrətinə və elminə heç kim dil uzada bilməzdi, ona görə də düşmənləri onun qəribə xasiyyətini, xarakterini hədəfə alırdılar; əslində isə, Deplendə ingilislərin *ekssentrik* adlandırdığı bir xüsusiyyət vardı. O gah Krebiyon[2] kimi təmtəraqla geyinib-kecinir, gah da geyimə qəribə bir laqeydlik göstərirdi; onu gah faytonda, gah piyada gəzən görürdülər. Bir gün kobud, o biri gün mehriban olurdu, üzdən acıqlı və simic görünsə də, iltifat göstərib onu bir neçə günlüyə qəbul etmiş sürgündəki rəhbərlərinə öz sərvətini də təklif edə bilərdi, qısası, heç bir kəs bu qədər ziddiyyətli mülahizələr doğurmayıb.

1. Napoleon Bonapart imperator elan edildikdən sonra (1804) onun hökmranlığını və sülaləsini simvolizə edən yeni gerb yaradılır və bu gerbin əsas elementlərindən biri də Roma İmperiyasının emblemi olan qartaldır. Qədim Roma mifologiyasında qartal baş tanrı Yupiterin Yer üzündəki nümayəndəsidir. – Tərc.

2. Klod Krebiyon (1707-1777) – fransız yazıçısı, şansonye – Tərc.